# Trans-Xəzər marşrutu üzrə Beynəlxalq Assosiasiyanın Hüquqi Şəxslər Birliyinin işçi qrupunun iclası



**Bu gün Bakıda "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası (TBNM BA) Hüquqi Şəxslər Birliyinin işçi qrupunun iclası keçirilib.**

"Azərbaycan Dəmir Yolları" QSC-dən (ADY) AZƏRTAC-a bildirilib ki, iclasda assosiasiyaya üzv dövlətlərin dəmir yolu administrasiyalarının əməkdaşları və nəqliyyat şirkətlərinin yüksəksəviyyəli rəsmiləri daxil olmaqla 10 ölkədən nümayəndə heyəti iştirak edib.

Tədbirdə qeyd olunub ki, Orta dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu son illərdə qlobaləhəmiyyətli yükdaşıma istiqamətlərindən birinə çevrilib. Bu marşrutla yük nəqlinin ildən-ilə artdığı, sürətli yük axınının təmin edilməsi üçün əməliyyatların səmərəliliyinin, rəqəmsal həllərin tətbiqinin və əməkdaşlığın dərinləşdirilməsinin vacibliyi vurğulanıb.

İclasda TBNM BA Hüquqi Şəxslər Birliyinin İcra orqanının 2024-cü ildə fəaliyyətin yekunu üzrə hesabatı və Trans-Xəzər marşrutu ilə daşımaların təhlili dinlənilib. Həmçinin iştirakçılar 2025-ci ildə TBNM üzrə təsdiqlənmiş tarif dərəcələrinə düzəlişlər, rəqəmsallaşma haqqında saziş layihəsi, eləcə də Xəzər dənizi limanları arasında fider bağlantısının təşkili və fider gəmilərin yüklənməsinin təmin edilməsi haqqında saziş layihələrini müzakirə ediblər.

Tərəflər 2025-ci ildə TBNM üzrə yük daşımaları planını və icrası ilə bağlı tədbirləri razılaşdırıb, Bakı-Tbilisi-Qars dəmir yolu ilə Avropaya konteyner daşımalarına üstünlük verilməsinin vacibliyini qeyd ediblər.

Sonda işçi qrupunun protokolu imzalanıb.

Qeyd edək ki, martın 4-də Bakıda "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin növbəti tədbiri - ümumi yığıncağının iclası keçiriləcək.

Azərbaycan.- 2025.- 4 mart (№ 48).- S.4.